

# QARABAĞ MƏNİM ÜÇÜN...

Günel NATİQ

Ən dərin hisslər haqqında danışmaq çətindir. Bir yazıçının dediyi kimi, bu barədə ya gərək kilometrlərlə danışasan, ya da susasan.

Amma mən danışmağa (yazmağa) çalışacağam.

Qarabağ – mənim dilimin ucundakı sözdür. Elə bir söz ki, əslində, həmişə bütün mətləblərin önündə gəlib, deyilmədiyi anlarda belə özünü xatırladıb.

Qarabağ – ağrının adıdır, elə bir ağrı ki, onunla üzləşmək qorxusu çox istəklərimin üstündən xətt çəkib.

Qarabağ – Vətən qədər uca insanlardır. Əhməd bəy Ağaoğludur, Səməd bəy Mehmandarovdur, Əbdürrəhim bəy Haqverdiyevdir, Üzeyir Hacıbəyovdur, Niyazidir, Rəşid Behbudovdur, Xudu Məmmədovdur...

Qarabağ – yurd yerlərimizin üstünə illərlə yağan həsrət qarıdır...

Qarabağ – 18 yaşımdan bəri Azərbaycan radiosunda müəllifi olduğum "Qərib axşamlar" verilişinin yaşantılarına hopan ağrıdır, nisgildir. Bu proqramda vaxtilə hisslərini bölüşən yurddaşlardır.

Mərhum iş yoldaşımız, jurnalist Kifayət Umudqızının gözümüzün önündə yaşayan, yaşlanan həsrətinin adıdır Qarabağ. O Kifayət Umudqızı ki, Kəlbəcərdən qaçqın düşəndən bəri ruh kimi gəzib-dolaşırdı. Bir gözü güləndə də o biri gözü ağlayırdı. Saçlarına rəng qoymurdu. Bir saçını ağ, birini qara hörmüşdü. Qınayanlar çox olurdu. Hamı onun, nəhayət, toparlanmasını, həyatda işıqlı yolu görməsini istəyirdi. O isə həmin işıqlı yolu ancaq Kəlbəcərə qayıtmaqda görürdü... İndi ruhu şaddır Kifayətin, əminəm ki, şaddır.

Qarabağ mənim üçün o yurdlardan qopan yoldaşlardır, qələmdaşlardır – Qulu Ağsəsdir, Sevinc Qəribdir, Təranə Vahiddir...

...Qulu Ağsəs "Qərib axşamlar"da bir vaxtlar kölgəsində povest yazdığı zoğal ağacından danışdıqca düşünürəm ki, bu qərib adam yurd yerlərinin ağrılarını da sevib və istəməyib o ağrılara tikan belə batsın. Çünki o ağrılar onun keçmişini, itirdiklərini və sevdiklərini qoruyub.

Bu illər ərzində elə hey özünə sual verib: "Görəsən, evdən çıxanda gizlədiyi kitabxanası dururmu? Telefon dirəyinə söz yazmışdı, görən, qalırmı?"

Bir vaxtlar o yadigarlar yurd yerini xatırlamaq üçün bir təsəlli idi, indi azad etdiyimiz yurd yerləri bizim bütün itkilərimiz üçün təsəlli olacaq.

Yurd yerinin həm sevincli, həm qərib anlarının şahidi – Sevinc Qərib. Şeirlərində nostalji duyğular o qədər qüvvətlidir ki, keçmişlə rabitənin itməsinə, bugünkü günlə qaynayıb-qarışmasına mane olur. Sanki hər şey ötüb-keçən yaddaşda qalıb və yeni baş verənləri qavramaq üçün bu şeirlərin müəllifinə hər dəfə yolunu ordan, o küçələrdən salmaq lazım gəlib.

İnsan bəzən o ağrılara sahiblik edir ki, onlarsız yaddaşda olanlara geri dönmək, xatırlamaq çətin olardı. Həmin qan yaddaşımız idi bizi o yerlərdən ayrılmağa qoymayan. Və müqəddəs günlərin birində bizi yurd yerlərinə qaytaran.

Laçının qayıdışını bayram edəndə qeyri-ixtiyari bir il əvvəlki günü xatırlayıram. Kitab təqdimatından qayıdırıq. Təranə Vahid, böyük bacısı Flora xanım və mən. Flora xanım da bacısı kimi geniş ürəkli və anlayışlıdır. Sözümüz, könlümüz yenə yurdları çəkir. Təranə Vahid bu an deyir ki, Flora Bakıda universiteti bitirən kimi Laçına bir də ayrılmamaq istəyilə qayıtmışdı. Elə həmin il Laçın yağmalandı...

Flora xanım bu sözlərin qarşısında susur, məhzun gözləri onun əvəzinə danışır, ali məktəbi bitirib doğma kəndə tələsən, ürəyi böyük arzularla dolub-daşan həmin o gənc qız gözümün önünə gəlir. Vətəndən uzaqdakı illər Flora xanım üçün çox ağır keçib, bunu da onun gözləri deyir...

İndi, Qarabağı qaytardığımız üçün şadlığımı qoymağa yer tapmayanda Flora xanımın necə xoşbəxt olduğunu düşünüb sanki sevincim az imiş kimi onun da yerinə sevinirəm...

Hamının birlikdə xoşbəxt olması necə də gözəldir!

Qarabağ həsrətilə dünyadan köçənlər də gəlir xatirimə. Hər birini ehtiramla anıram.

Bu an diktor Bəxtiyar Şərifzadənin hərbi vətənpərvərlik ruhuna köklənmiş əzəmətli səsini radiodan eşitməyim də, düşünürəm ki, təsadüfi deyil. Sanki o da bu coşquya qatılır və mübarizəyə öz töhfəsini verir. Ötən illərin səs yazısıdır; Bəxtiyar müəllim illər öncə dünyadan köçüb. O, qarabağlı deyildi, amma hər bir azərbaycanlı kimi həm də qarabağlı idi. Qarabağın azad olunması xəbərini efirdən söyləmək onun ən böyük arzusuydu...

Ürəyimdə ona da gözaydınlığı verirəm. Yəqin ki, o bunu eşidir...

Qarabağ mənim üçün vətən həsrətilə dünyadan köçən insanlardır, onların müqəddəs həsrətidir və yurd yerlərinin başı üzərində dolaşan itkin ruhlardır.

Qarabağ mənim üçün illər boyu yığıb saxladığımız arzu və diləklərdir, indi o arzuları həyata keçirməyə min illər yetməz...

Qarabağ – xalqın bir yumruq kim birləşdiyi və ümidini, ağrısını, dərdini, sevgisini bir ürəkdə birləşdirdiyi yüksəliş duyğusudur.

Qarabağ – ölçüyəgəlməz sevinc və ruh yüksəkliyilə cəbhəyə yollanan, rəşadətlə döyüşən və azad edilmiş yurdlarımızda zəfər tuğlarını sancan oğullardır.

Qarabağ- şəhid övladının cənazəsini çiyinlərinə qaldıran məğrur anadır.

Qarabağ – gözlərini, əlini, ayağını itirən, ürəyində qəlpə gəzdirən və yenə "Vətənə canım qurban" deyən döyüşçülərdir.

Qarabağ – yenilməzliyimizdir, birliyimizdir, diriliyimizdir.

Qarabağ – bizimki olduğunu yalnız tarixi yaddaşla deyil, həm də canımızla, qanımızla təsdiqlədiyimiz yurd yeridir- artıq onu bizdən almağa kimsənin gücü və cəsarəti yetməz!..